AZƏRBAYCAN www.azerbaijan-news.az

# Zeyvənin adını ucaldan qəhrəman



Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi və beynəlxalq hüququn tələbləri kobud şəkildə pozularaq ötən ayın əvvəllərində cəbhənin müxtəlif istiqamətlərində təxribat xarakterli hərəkətlər edildi. Düşmən təxribatının qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Silahlı Qüvvələrimizin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətlərində cavab tədbirlərinin görülməsi barədə qərar qəbul edildi.



Həyata keçirilən sürətli əks-həmlə zamanı erməni hərbi birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarıldı, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri düşməndən azad olundu.

Təəssüf ki, düşmənlə döyüşlərdə Silahlı Qüvvələrimizin hərbi qulluqçuları arasında şəhidlik zirvəsinə ucalanlar da oldu. Belə şəhidlərdən biri də bu ilin aprel ayının əvvəllərində Tərtər istiqamətində döyüşlərdə qəhrəmancasına vuruşaraq həlak olan Milli Ordumuzun giziri Babək Abidovdur.

Azərbaycanın qəhrəman övladı Babək Abidov 1992-ci il mayın 3-də Şabran rayon mərkəzindən 26 kilometr aralıda uca dağın ətəyində füsunkar təbiətə malik Zeyvə kəndində dünyaya göz açmışdı. Minillər tarixi olan bu uca dağ kəndi Azərbaycanın bütövlüyü uğrunda öz həyatını qurban vermiş şəhidləri ilə də fəxr edir. Atası kənd müəllimi olan Bahadur Abidov yeni doğulmuş körpəsinə Azərbaycan xalqının tarixi qəhrəmanı Babəkin adını qoymuşdu ki, bu ad uşağı vətənpərvər olmağa yönləndirsin.

Şəhid Şahmurad Nuriyevin adını daşıyan Zeyvə kənd tam orta məktəbində təhsil alarkən Babək öz nümunəvi davranışı ilə həm müəllimlərin, həm də şagirdlərin böyük hörmətini qazanmışdı. Anası Simnarə xanım sonbeşik oğlu Babəkin məktəbdə nümunəvi şagird olması və vətənpərvərliyi ilə daim öyünər, digər üç övladına da onun kimi olmağı aşılayırdı. Anasının Babəklə bağlı arzuları böyük idi. Övladının toyunu görmək istəyirdi. Çünki Babəkin yolunu həsrətlə gözləyən nişanlısı var idi. Amma Babək anasına və nişanlısına yazdığı məktublarında qarı düşməni torpaqlarımızdan tamamilə qovmayınca hərbi xidmətini davam etdirəcəyinə israr edirdi. Qəhrəman Babək düşmənlərimizi doğma torpaqlarımızdan təmizləmək işində layiqli xidmətini göstərsə də, təəssüf ki, arzularına çata bilmədi.

Orta məktəbi bitirən kimi Babək də hər bir Azərbaycan oğlu kimi Vətən qarşısında borcunu ödəmək üçün Milli Ordu sıralarında, özü də cəbhəyanı bölgədə hərbi xidmətə başladı. Hərbi xidmət zamanı komandirlərinin və əsgər yoldaşlarının rəğbətini qazandı. Bütün tapşırıqları səylə və doğru-düzgün yerinə yetirirdi.

Heç zaman düşməndən qorxmayan, çəkinməyən Babək aprel ayının əvvəllərində ermənilərin hərbi təxribatlarının qarşısını almaq üçün ön sırada igidliklə vuruşaraq qəhrəmancasına həlak oldu. Zeyvə kəndinin Qarabağ müharibəsində sayca yeddinci şəhidi olan Babək Abidovun doğulduğu kəndin qəbiristanlığında dəfn mərasimi böyük izdihamla keçirildi. Dəfndə kənd camaatı ilə yanaşı, qonşu kəndlərin sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, rayon rəhbərliyi, Müdafiə Nazirliyinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, Babəkin döyüş yoldaşları iştirak etdilər.

Şəhidlik - Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. Şəhidlik verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Müqəddəs Quranda da buyurulur ki, şəhidlik və qazilik peyğəmbərlərdən sonra gələn adlardır. Əminik ki, Azərbaycanın işğal edilmiş torpaqları ən qısa zamanda geri qaytarılacaq və şəhidlərimizin ruhu şad olacaq.

***Tofiq MUSTAFAZADƏ,***
***tarix elmləri doktoru, professor,***
***əməkdar elm xadimi***